

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 136 (21.037)

18 iyul 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Sosial-iqtisadi inkişafın Naxçıvan modeli dünyada nümunə kimi qəbul edilir

### *Cari ilin ilk altı ayının yekunları da belə deməyə əsas verir*

***Blokada və inkişaf sözləri kəskin şəkildə bir-birinə ziddiyyət təşkil edən iki anlayışdır. Buna görədir ki, 24 ildir, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında nəzərəçarpan sürətli sosial-iqtisadi inkişaf beynəlxalq səviyyəli ekspertlər tərəfindən təəccüblə qarşılanır. Səbəb isə məlumdur: dünyanın heç bir yerində blokada vəziyyətində saxlanılan bir məkanda inkişaf meyilləri, ümumiyyətlə, nəzərə çarpmayıb. Yəni hazırda dünyada ikinci belə bir nümunə yoxdur. Məhz buna görə həmin beynəlxalq ekspertlər iqtisadi inkişafla bağlı terminologiyaya yeni bir anlayışın daxil olduğunu etiraf edirlər. Bu, sosial-iqtisadi inkişafın Naxçıvan modelidir.***



Aparılan məqsədyönlü və ardıcıl iqtisadi siyasət nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası çox sürətlə inkişaf edir. Qədim diyarda Azərbaycan Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin icra olunması, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, ardıcıl olaraq islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır.

Mövcud potensialdan daha səmərəli istifadə etməklə sənayenin və kənd təsərrüfatının inkişafını sürətləndirmək, bu işdə sahibkarlara hərtərəfli dəstək vermək, əhalinin həyat səviyyəsini daha da yaxşılaşdırmaqla insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər nəticəsində Naxçıvanda əhəmiyyətli nailiyyətlər əldə edilib. Ən əsası isə bu uğurların davamlı xarakter almasıdır. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinin qeyd olunduğu və "Muxtariyyət ili" elan edilmiş 2014-cü ilin ilk yarımili ərzində də biz uğurlu nəticələrin şahidi olduq.

Dövlət başçısı cənab İlham Əliyev ölkə iqtisadiyyatının sənayeləşməsini sürətləndirmək, ölkəmizin güclü sənaye mərkəzinə çevrilməsi üçün mövcud potensialdan daha səmərəli istifadə etmək məqsədilə 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, ötən müddət ərzində rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri yaradılıb. Qədim diyarda sənaye məhsullarının istehsalının ilbeil sürətlə artması da bu sahədə nəzərəçarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir.

Cari ilin ilk 6 ayında muxtar respublikada 471 milyon 580 min manat həcmində sənaye məhsulu istehsal olunub ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələyir. Sənaye məhsulu istehsalının 95,8 faizi malların, 4,2 faizi isə xidmətlərin payına düşüb. Dövlət sektorunda 32669 min manatlıq, qeyri-dövlət sektorunda isə 438911 min manatlıq sənaye məhsulu istehsal edilib. Yəni istehsal olunan məhsulun 93,1 faizi özəl sektorun payına düşüb.

Bundan başqa, cari ilin ötən dövrü ərzində muxtar respublikada dövlət dəstəyi ilə 22 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilib, iqtisadi fəaliyyətin müxtəlif sahələrində 48 layihə üzrə istehsal və xidmət obyektlərinin qurulması isə hazırda davam etdirilməkdədir.

Cari ilin ötən dövrü ərzində sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2 milyon 233 min 800 manat həcmində kredit verilib. Bu da bir il öncəki müvafiq göstəricidən 2,3 dəfə çoxdur.

Muxtar respublikada sənayedə istehsalın artması ixracın da həcminə müsbət təsir göstərib və cari ilin ilk yarımili ərzində daxili tələbatdan artıq istehsal olunmuş 138 milyon 670 min ABŞ dolları dəyərində sənaye məhsulu xarici ölkələrə ixrac edilib.

İqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatının istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyinin səmərəliliyinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında kompleks tədbirlər həyata keçirilir. Bu istiqamətdə görülən işləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Bu da böyük nailiyyətdir, böyük uğurdur".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2008-ci il sentyabrın 17-də imzaladığı Sərəncamla təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası istiqamətində bir sıra işlər görülüb. Belə ki, proqramın qəbul olunduğu 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə bitkiçilik məhsullarının həcmi 3 dəfə artaraq 46 milyon 419 min manata, heyvandarlıq məhsullarının həcmi isə 82,3 faiz artaraq 53 milyon 426 min manata çatıb.

2014-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 829 hektar sahədə əkin aparılıb ki, bu da 2013-cü ilin məhsulu üçün əkilmiş sahədən 702 hektar çoxdur.

Etibarlı ərzaq təminatı sisteminin qurulması daxili bazarda tələbatın səmərəli ödənilməsi ilə yanaşı, ixrac potensialını da gücləndirməkdədir. Belə ki, ötən dövr ərzində muxtar respublikadan 36 milyon ABŞ dollarından artıq kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz məhsulları ixrac olunub.

Ümumilikdə, istehsalın yüksək sürətlə artması iqtisadi inkişafın mühüm göstəricilərindən hesab edilir. Yerli istehsalın inkişafı strategiyasına uyğun olaraq, hazırda muxtar respublikada 349 növdə məhsul istehsal olunmaqdadır. Bu məhsulların 116 növü ərzaq, 233 növü qeyri-ərzaq məhsullarıdır. 107 növdə ərzaq, 227 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 334 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilib.

Yuxarıda qeyd etdiyimiz kimi, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası bütün sahələrdə inkişafa nail olub. Təbii ki, bu inkişaf tendensiyasının qorunub saxlanılması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Onu da deyək ki, inkişaf həm də enerjiyə olan tələbatı daha da artırır. Yəni yüksəlişi qoruyub saxlamaq üçün öncə enerji təhlükəsizliyini təmin etmək lazımdır. Bu mənada muxtar respublikada enerji təminatının daha da yaxşılaşdırılması, ən əsası, enerji təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm əhəmiyyətə malik işlər görülüb və nəticədə, Naxçıvan enerji ixrac edən mühüm iqtisadi məkana çevrilib.

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir. Hətta ixrac imkanları yaranmışdır".***

Bu sahədə tədbirlərin intensivləşdirilməsi məqsədilə 2014-cü il martın 14-də Azərbaycan Respublikasının Prezidenti Naxçıvan Muxtar Respublikasında "Arpaçay-2" Su Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, "Arpaçay-2" Su Elektrik Stansiyasının tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat vəsait ayrılıb.

Cari ilin ötən dövrü ərzində Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları istifadəyə verilib. Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının inşası işləri davam etdirilməkdədir.

Enerji təhlükəsizliyinin əsas tərkib hissəsi kimi istehlakçıların təbii qazla təminatı təsərrüfat fəaliyyətinin inkişafında mühüm rol oynamaqdadır. 2014-cü il iyulun 1-nə olan məlumata görə, 81 min 517 abonent təbii qazla təmin olunub.

İnvestisiya qoyuluşları hər bir sahənin dinamik inkişafını sürətləndirən mühüm amillərdən biridir. Cari ilin ötən dövrü ərzində muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 516 milyon 277 min manatlıq investisiya yönəldilib ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricidən 1,6 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 455 milyon 694 min manatı və ya 88,3 faizi tikinti-quraşdırma işlərində istifadə edilib. 2014-cü ilin yanvar-iyun aylarında muxtar respublikada 121 müxtəliftəyinatlı obyekt tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda 234 müxtəliftəyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilir.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında əhalinin gəlirlərinin müsbət artım dinamikası qorunub saxlanılıb. Cari ilin ilk altı ayında muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətdə 3,4 faiz artaraq 755 milyon 16 min manata, onun hər bir nəfərə düşən həcmi isə 1,8 faizlik artımla 1731 manata çatıb. Bu dövr ərzində orta aylıq əməkhaqqının məbləği 382,5 manata çatıb ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricidən 2,1 faiz çoxdur.

Qədim diyarda əhalinin işlə təminatı məsələsinə də xüsusi diqqət göstərilir. 2014-cü ilin yanvar-iyun aylarında 1655 yeni iş yeri yaradılıb ki, bunun da 1599-u və ya 96,6 faizi daimi iş yerləridir.

Muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində ardıcıl tədbirlər görülüb. Yaradılan ***"isaxtar.nmr.az"*** internet saytı vasitəsilə muxtar respublikada əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatlar işaxtaranlara çatdırılır.

Ölkələrin, regionların inkişafını göstərən əsas amillərdən biri də Ümumi Daxili Məhsulun (ÜDM) artım tempidir. ÜDM ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricisi olmaqla yanaşı, həm də milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında ÜDM-in artımı ümumi sürətli inkişafın bariz nümunəsidir. Belə ki, ötən altı ay ərzində muxtar respublikada 1 milyard 14 milyon 85 min manatlıq ÜDM istehsal olunub ki, bu da bir il öncəki müvafiq göstəricini 2,4 faiz üstələyib. 2014-cü ilin yanvar-iyun aylarında hər bir nəfərə düşən ÜDM-in həcmi ötən ilin müvafiq dövrünə nisbətən 2,3 faiz artaraq 2323,8 manat (2962,9 ABŞ dolları) səviyyəsində olub. Ümumi Daxili Məhsulun tərkibində ilk yeri 31,5 faizlik payla sənaye sahəsi, ikinci yeri isə 22,8 faizlik payla tikinti sahəsi tutub. Onu da deyək ki, sənayenin gücləndirilməsi yalnız dünyanın inkişaf etmiş ölkələrinə xas olan xüsusiyyətlərdəndir. Naxçıvan Muxtar Respublikasında sənayenin ÜDM-də birinci yerə yüksəlməsi qədim diyarın hərtərəfli inkişafına əyani sübutdur.

*Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli tədbirdə buradakı irimiqyaslı quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı demişdir:* ***"Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır. Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

**Rauf ƏLİYEV**

# Gömrükçülər yarımilə yekun vurublar

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrə və cari ilin birinci yarısında görülmüş işlərə həsr olunmuş kollegiya iclası keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da ümummilli liderimizin quruculuq xəttinin uğurla davam və inkişaf etdirilməsi nəticəsində bütün sahələrdə dinamik inkişaf tempinin qorunub saxlanıldığını deyib.

Qeyd olunub ki, hərtərəfli inkişaf və tərəqqi ilə müşayiət olunan ilk yarımildə muxtar respublika gömrük orqanları tərəfindən iqtisadi təhlükəsizliyin qorunması və hüquq-mühafizə fəaliyyətinin yerinə yetirilməsi, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin edilməsi, yerli istehsal sahələrinin dəstəklənməsi, ixracın stimullaşdırılması istiqamətində səylər artırılıb.

Vurğulanıb ki, Naxçıvanda "Muxtariyyət ili" elan olunan 2014-cü ilin birinci yarısında gömrük xidmətinin modernləşdirilməsi, yüksək iş və xidmət şəraitinin yaradılması istiqamətində tədbirlər davam etdirilib. May ayında Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün yeni inzibati bina istifadəyə verilib, "Naxçıvan Terminal Kompleks" Birliyi üçün tikilən yeni inzibati binanın inşası yekunlaşdırılıb. Bu gömrük orqanı üçün anbar komplekslərinin qurulması və ərazinin abadlaşdırılması istiqamətində işlər davam etdirilir. Culfa və Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqələrindən sonra Sədərək gömrük sərhəd-buraxılış məntəqəsində də nəqliyyat vasitələrinə gömrük nəzarətinin keyfiyyətini artırmaq məqsədilə rentgen nəzarəti qurğusu (X-ray) quraşdırılıb.

Komitənin Maliyyə-tarif şöbəsinin rəisi, gömrük xidməti mayoru Pənah Pənahov büdcənin formalaşdırılması istiqamətində müəyyən olunmuş illik proqnoz tapşırığa ilk altı ay ərzində 84,8 faiz əməl olunduğunu deyib. Həmin ödənişlərin 57 faizi avtonəqliyyat vasitələrinin, 43 faizi isə digər malların rəsmiləşdirilməsindən əldə olunub.

Vurğulanıb ki, tabeli gömrük idarələrində POS-terminalların quraşdırılması, depozit hesabların açılması, plastik kartların alınması hesabına gömrük borcunun ödənilməsi qaydaları təkmilləşdirilib. 2014-cü ilin birinci yarısında toplanmış gömrük ödənişlərinin 5 milyon 57 min 937 manatı bank, 38 min 495 manatı POS-terminal və ya elektron hökumət ödəniş portalı vasitəsilə ödənilib.

"Qəbul olunmuş dövlət proqramlarının 2014-cü ilin ilk altı ayı ərzində muxtar respublika gömrük orqanları tərəfindən icra vəziyyəti və daxili bazarın qorunması istiqamətində görülmüş işlər"dən danışan komitənin Gömrük nəzarətinin təşkili şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Zaur Bağırov vurğulayıb ki, hesabat dövründə insanların həyat və sağlamlığının qorunması, əhalinin keyfiyyətli məhsullarla təmin olunması, ərzaq təhlükəsizliyi istiqamətində səylər artırılıb, muxtar respublikaya keyfiyyətsiz qida məhsullarının gətirilməsinin qarşısı alınıb.

Altı ay ərzində 95 tona yaxın kənd təsərrüfatı, ərzaq və digər qida məhsullarının idxalına icazə verilməyib. Həmin mallar üzərində istehlak tarixinin olmaması, istehlak müddətinin bitməsi, mənşəyinin məlum olmaması, əmtəə görünüşünün pozulması, tərkibində nitratın miqdarının normadan artıq olması kimi hallara görə buraxılmayıb. Ümumilikdə, ayrı-ayrı vətəndaşlardan saxlanılan 10 tona yaxın məhsul isə yuxarıda qeyd olunan səbəblər əsas götürülərək məhvetmə komissiyası tərəfindən məhv olunub.

Komitənin Gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Əli Əliyev cari ilin ilk altı ayı ərzində gömrük orqanları tərəfindən 4 cinayət tərkibli faktın aşkarlandığını, ümumilikdə, 191,675 qram tiryəkin, 131,012 qram marixuananın, 20,132 qram həşişin İran İslam Respublikasından, 13900 ədəd pirotexniki vasitələrin isə Türkiyə Respublikasından Naxçıvan Muxtar Respublikası ərazisinə gətirilməsinin qarşısının alındığını deyib.

Sonra tabeli gömrük orqanları rəislərinin hesabatları dinlənilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Zəmilərin bərəkəti



*Biçinçilər işə tezdən başlamışdılar. Kombaynlar bunkerlərdəki günün ilk dənini yük maşınlarına boşaltmışdılar ki, Ağrı dağının zirvəsindən sürətlə Dəmirçiyə enən qara buludlar sanki hər yanı toranlaşdırdı. İri yağış damlaları oturduğumuz avtomobilin damını, şüşələrini döyəcləməyə başladı. Bizimlə birlikdə Dəmirçi kəndinə, fermer Fəxrəddin Alıyevin taxıl zəmisinə gəlmiş Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Kamil Bağırov maşının açıq pəncərəsindən Ağrı dağını göstərərək söz başladı:*

– Buna bizim yerlərdə "yay yağışı" deyirlər. Başqa əkin-biçinə xeyri olsa da, taxıla ziyan vurur, biçini ləngidir.

Bu arada Kamil müəllim son illər rayonda taxılçılığın inkişafından, əkin sahələrinin genişlənməsindən, məhsuldarlığın yüksəlməsindən söz saldı. Öyrəndik ki, keçən il 9181 hektardan 28 min 247 ton taxıl toplanılıb. Bu ilin məhsulu üçün taxıl əkinlərinin sahəsi 9 min 184,1 hektara çatdırılıb.

... Doğrudan da, qəfil yağan yağış 5-10 dəqiqədən sonra kəsdi, ətraf aydınlığa büründü. Fermer Fəxrəddin Alıyev bildirdi ki, bu il 10 hektarda taxıl əkib-yetişdirib. O, göstərilən maliyyə köməyindən ayrıca söz açdı. Qeyd etdi ki, bu vəsaiti və gübrəni almasaydı, bu qədər sahədə bol məhsul yetişdirmək mümkün olmazdı. Fermer onu da söylədi ki, sabah, ya o biri gün biçini qurtaracağıq. Qırx tondan çox məhsul gözlənilir. Bunun 3-4 tonu öz ehtiyacını ödəyəcək. Qalanını isə satmaq lazımdır ki, xərclər ödənilsin, qazanc əldə edəsən, gələn il üçün də sərmayən olsun.

Yolumuz Püsyan kəndinədir. Rayonun qabaqcıl fermerlərindən olan Ələkbər Cəfərov burada yaşayır. Düşünürdük ki, qabaqcıl taxılçı yağış yağdığından çətin ki, bu havada sahəyə çıxsın. Amma Ələkbər zəmidə idi. Yəqin ki, onu bu ünvana çəkən qüvvə taxılçılara tanışdır. Yəni bu cazibəni əsl zəhmət adamları yaxşı bilirlər. O zəhmət adamları ki onları yayın qızmar Günəşi də sahədən ayıra bilmir.

Ələkbər Cəfərov zəminin kənarında durub gözlərini yola dikmişdi. Arabir də əlini ehmalca sünbüllərə çəkir, nəmliyini yoxlayırdı. Başını üfüqdən boylanan Günəşə tutan əkinçi sanki ondan yeri daha tez qızdırmasını təvəqqe edirdi. Axı yağan yağış sahəni islatmış, kombaynçı Adil Xəlilov "zəminin nəmliyi çəkilməmiş biçinə başlamaq olmaz", – demişdi.

Ələkbər Cəfərovun gözləməkdən başqa çarəsi yox idi. Biz də yaxşı məqamda gəlmişdik. Başqa vaxt çətin ki, o, işləyən kombaynın yanından ayrılıb bizimlə həmsöhbət olardı. Taxılçı bizi zəminin kənarındakı ağacın kölgəsində dincəlmək üçün qurulmuş stulda oturmağa dəvət etdi. Özü də üzü zəmiyə gələn yola tərəf oturdu. Baxışı tez-tez kombaynçının gələcəyi tərəfə yönəlirdi. Öyrəndik ki, Ələkbər Cəfərovun fermer təsərrüfatı 18 hektarda bol taxıl hasilə gətirib. Artıq son hektarların məhsulu biçilir. Hər hektardan 40 sentnerdən çox taxıl götürülür.

Biz sahədən qayıtmaq istəyən zaman kombaynçı da gəlib çıxdı. Onu görən kimi Ələkbər Cəfərovun üzü daha da nurlandı, yerindən dik qalxdı:

– Harada qalmısan, ay sağ olmuş, gün günorta oldu ki?.. – deyə kombaynçını ərklə danladı da.

– Narahat olma, qaş qaralınca işləyəcəyik, – deyə kombaynçı cavab verdi.

Zəhmət adamı bizdən səmimi təbəssümlə ayrıldıqdan sonra kombaynçı ilə birlikdə sahəyə üz tutdu. Zəmidən ayrılsaq da, buğdanın ətrini hələ də hiss edirdik. Bu isə çörəyin bol olacağından soraq verirdi.

Biz rayonun Çəmənli, Qarahəsənli, Ərəbyengicə, İbadulla, Qışlaqabbas, Ələkli, Dərvişlər kəndlərində də olduq. Fermerlərlə, kənd adamları ilə iş üstündə görüşüb söhbət etdik, taxıl biçininin gedişi ilə maraqlandıq. Hər yerdə yüksək işgüzarlığın və mütəşəkkilliyin şahidi olduq. Kənd adamlarını belə bir cəhət xüsusilə razı salır ki, taxıl biçinini vaxtında və itkisiz başa çatdırmaq üçün rayon təşkilatları köməklərini əsirgəmirlər. Xahiş və müraciətlər dərhal, operativ surətdə öz həllini tapır.

Belə xoş münasibətdən, qarşılıqlı əlaqə, kömək və qayğıdan söz düşəndə rayon Suvarma Sistemləri İdarəsi, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Şərur bazası və başqa əlaqədar təşkilatlar yada düşür. Ona görə də bazanın aparıcı mütəxəssisi Sabir Talıbova sualımız konkret oldu:

– Taxıl biçininə nə qədər texnika cəlb olunub?

– Əvvəlcədən onu deyim ki, zəmilərdə, meyvə-tərəvəz, bağ-bostan sahələrində belə bol məhsul görəndə bizim də sevincimiz ikiqat olur. Ona görə ki, bu bolluq və bərəkətdə bizim də payımız var. Taxıl biçininə 18 kombayn, 40-dək yük maşını cəlb olunub. Bir sözlə, taxıl biçinini qısa müddətdə və itkisiz başa çatdırmaq üçün bizdən asılı olan bütün tədbirlərin gecikdirilmədən və keyfiyyətlə aparılmasına çalışırıq.

*Rayondakı müasir un dəyirmanları da artıq mövsümün təzə məhsulu ilə işləyir. Dəyirmanların təknəsinə təzə un ələnir. Hər gün çörək sexlərində, təndirlərdə təzə undan bişən isti çörəyin xoş iyi Şəruru bərəkət ətrinə bürüyür.*

**✍ Cəfər ƏLİYEV**

*Torpağın münbitliyi, yəni əkin üçün yüksək yararlılıq xüsusiyyəti onu digər istehsal vasitələrindən əsaslı şəkildə fərqləndirir. Daim istifadə olunan torpaq əraziləri münbitləşməni zəruri etməklə bərabər, bu istiqamətdə müxtəlif kənd təsərrüfatı tədbirlərinin həyata keçirilməsini də qaçılmaz edir.*

# Torpaqların münbitləşdirilməsi mütərəqqi əkinçilik mədəniyyətinin inkişafında əsas amildir

Torpağın digər istehsal vasitələrindən ən böyük üstünlüyü ondadır ki, başqa istehsal vasitələri işləndikcə köhnəlir, torpaq istehsal prosesindən çıxdıqda və ya ondan səmərəli istifadə olunduqda isə daha da münbitləşir. Bunun üçün torpağın münbitliyini qorumaq ondan istifadə edənlər üçün ən başlıca şərtlərdən biridir. Torpaqların münbitliyinin artırılması, yeni sahələrin əkin dövriyyəsinə daxil edilməsi, habelə əkinçilikdə yeni suvarma metodlarının tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq tapşırıqları da bu gün qarşıda duran əsas vəzifələrdən biridir.

"2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Naxçıvan Şəhər Şöbəsi tərəfindən mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, Naxçıvan şəhərində və ona tabe olan qəsəbə, kənd ərazilərində əkin dövriyyəsinə daxil olan torpaqların tərkibi öyrənilmiş, torpaqların və əkinlərin rayonlaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları ilə birlikdə şəhərin əkin atlasları hazırlanmışdır. Hazırlanan atlaslarda hər bir bələdiyyə ərazisi üzrə torpaqların kartoqram xəritələri, ərazidə yayılmış torpaq tipləri və növ xəstəlikləri üzrə torpaq xəritələri tərtib edilmişdir. Kartoqram xəritələrinin hazırlanması üçün şöbə tərəfindən hər bir bələdiyyə ərazisi üzrə bütün mülkiyyət növləri müəyyənləşdirilərək işçi planlar hazırlanmış və həmin planlar əsasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Layihə Axtarış Kimyalaşdırma Stansiyası tərəfindən yerlərdən torpaq nümunələri götürülərək analizlər aparılmışdır. Aparılmış torpaq analizlərinin yekunu olaraq kartoqram cədvəlləri hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının digər bölgələrində olduğu kimi, Naxçıvan şəhərinin inzibati ərazi vahidinə daxil olan kəndlərdə də əhalinin əsas məşğuliyyəti və gəlir mənbəyi torpaqdır. Ümumi sahəsi 19 min 157 hektar olan inzibati ərazi vahidliyinin 4474 hektarını kənd təsərrüfatına yararlı torpaqlar təşkil edir ki, bunun da 1711 hektarı əkinəyararlı torpaqlardır. Şəhər ərazisinin maili düzənliklərdən ibarət olması burada torpaq-iqlim müxtəlifliyini nəzərə almaqla kənd təsərrüfatı bitkiləri əkinlərinin rayonlaşdırılması zərurətini yaratmışdır.

Məlumat üçün qeyd edək ki, Naxçıvan şəhərinin ərazisində, əsasən, boz, boz-çəmən və şabalıdı torpaq tipləri və tip müxtəliflikləri yayılmışdır. Boz torpaqların ərazinin əsas hissəsini təşkil etməklə mexaniki tərkibli və başqa əlamətlərinə görə gilli-boz, ağır gillicəli-boz və orta gillicəli-boz torpaqlar olduğu müəyyən edilmişdir. Bu torpaqlar taxıl, tərəvəz və yonca əkinləri üçün daha çox yararlıdır. Ərazidə orta dərəcədə yayılmış boz-çəmən torpaqların humusla o qədər zəngin olmaması isə həmin ərazilərin aqrotexniki qaydalara uyğun olaraq üzvi və mineral gübrələrin düzgün tətbiqi yolu ilə istifadəsinə imkan verir. Naxçıvan şəhəri ərazisində yayılmış digər torpaq növü isə şabalıdı torpaqdır. Bu tip torpaqlar asan mənimsənilən azot və mübadilə olunan kaliumla yaxşı, fosforla isə nisbətən zəif təmin olunmuşdur. Şabalıdı torpaqların əsas tipik yarımnövləri relyefin hamar hissələrində, səthi azmeyilli yamaclarda inkişaf etmişdir. Mexaniki tərkibi, əsasən, yüngül gillicəli olan bu cür torpaq sahələri həmin ərazilərdə dənli bitkilərin, üzümçülüyün, şəkər çuğunduru sahələrinin artırılması və bol məhsul yetişdirilməsi üçün daha yararlıdır.

Qeyd olunan torpaqların xüsusiyyətləri nəzərə alınaraq aidiyyatı üzrə istifadə olunması bu gün mülkiyyətçilər qarşısında duran əsas vəzifələrdən biridir. Buna görə də Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Naxçıvan Şəhər Şöbəsi tərəfindən mütəmadi olaraq sahələrdə torpaq mülkiyyətçiləri ilə maarifləndirici tədbirlər keçirilir, qarşılıqlı fikir mübadiləsi aparılır. Həyata keçirilən tədbirlərdə nəticəliliyin təmin olunması üçün kənd təsərrüfatı mütəxəssislərinin iştirakına şərait yaradılmaqla bərabər, məhsul yığımında təhlili müzakirələrə də geniş yer verilir. Bunun nəticəsidir ki, muxtar respublikada əsas strateji məhsul sayılan taxılçılığın inkişafı son illərdə şəhərətrafı kəndlərdə də geniş vüsət almış, 2014-cü ilin məhsulu üçün 1229,1 hektar sahədə taxıl əkini aparılmışdır.

Torpaqların münbitliyinin qorunub saxlanılmasında sahəqoruyucu meşə zolaqlarının salınması da mühüm rol oynayır. Ekoloji təhlükəsizliyin təmin olunmasında böyük əhəmiyyət daşıyan bu amil cari ildə də diqqət mərkəzində saxlanılmış, ilin ilk yarımilində Naxçıvan şəhərində və ona tabe olan kənd yaşayış məntəqələrinin ərazilərində 480 ədəd meşə ağacı, 3700 ədəd həmişəyaşıl, 520 ədəd isə dekorativ ağac əkilmişdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na əsasən, 6 hektar sahədə meyvə bağı salınmış, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrində, ümumilikdə, 6 min 820 ədəd müxtəlif meyvə ağacları əkilmişdir.

Torpağın münbitliyi iqtisadi qiymətləndirmə baxımından müxtəlifdir. Normal təbii şəraitdə torpaqda gedən bütün proseslər tarazlıq təşkil edir. Lakin torpaq daim təbii və antropogen təsirlərə məruz qalır; onu qar və sel suları yuyaraq aparır, külək dağıdır və sovurur. Bir çox hallarda isə torpağın tarazlıq vəziyyəti insanlar tərəfindən pozulur. Buna görə də torpaqlarda münbitliyin təmin edilməsi baxımından növbəli əkin sistemini tətbiq etmək, yem bitkiləri əkinlərində güclü bitki örtüyü yaratmaq, örüşlərdə otarma normalarına riayət etmək, üzvi gübrələrdən geniş istifadə etmək, suvarma qayda və normalarını diqqətdə saxlamaq qarşıda duran məsələlərdən olmalıdır. İnanırıq ki, torpaq mülkiyyətçiləri ilə bu sahədə maarifləndirici tədbirlərin davam etdirilməsi torpaqlardan səmərəli istifadə olunmasına, mütərəqqi əkinçilik mədəniyyətinin inkişafı ilə bərabər, məhsul bolluğunun yaradılmasına öz töhfəsini verəcəkdir.

**Həsən MAHMUDOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Naxçıvan Şəhər Şöbəsinin müdiri***

***Naxçıvan tarixin müxtəlif dövrlərinə aid tarix və mədəniyyət abidələri ilə zəngindir. Azərbaycan xalqı öz müstəqilliyinə qovuşduqdan sonra milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində xeyli işlər görülmüşdür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında görülən işlər xüsusilə təqdirəlayiqdir. Milli-mənəvi dəyərlərimizin bir parçası olan tarix və mədəniyyət abidələrinin tədqiqi, bərpası və qorunması həmişə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət mərkəzində olmuşdur. Qeyd etmək lazımdır ki, bu abidələr yalnız Azərbaycan tarixinin öyrənilməsi üçün deyil, həmçinin ümumdünya tarixinin öyrənilməsi üçün də əhəmiyyətlidir. Belə abidələrdən biri də Culfa rayonundakı Əlincəqala abidəsidir. 11 fevral 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalanmışdır. Sərəncamda deyilir: "Əlincəqala tarixdə Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmış, 1387-1401-ci illərdə, 14 il ərzində Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir".***

# Azərbaycanın yenilməzlik simvolu

## Əlincəqala



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamından sonra Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA Naxçıvan Bölməsi abidənin elmi-bərpa layihəsini hazırlamışdır. İki aydan artıqdır ki, Əlincəqalanın bərpasına başlanmışdır. Özünəməxsus arxitekturası olan qalanın bərpası həm şərəfli, həm də məsuliyyətli bir işdir. İyulun 14-də Əlincəqalada aparılan elmi-bərpa işləri ilə tanış olmaq üçün akademik İsmayıl Hacıyevlə birlikdə yenidən qalaya getdik. İlk baxışdan aydın olurdu ki, elmi-bərpa işlərinə başlamaq heç də asan olmamışdır. Məlum olduğu kimi, qalanın iki əsas girişi olmuşdur. Bu girişlərdən biri Culfa-Qazançı yolunun sağ tərəfindədir. Bərpa işlərinə bu hissədən başlanması məqsədəuyğun hesab edilmiş və Əlincə dağının müəyyən hissəsinə qədər, daha doğrusu, qala istehkamlarına qədər torpaq yol çəkilmişdir. Dağın müəyyən hissəsinə yol çəkilsə də, bərpa üçün zəruri olan tikinti materialları qalaya əllə və digər yardımçı vasitələrlə qaldırılır. Bərpa işlərinə yüzdən artıq işçi cəlb edilmişdir ki, onlar da sahə rəhbərlərinin göstərişi ilə təmir və bərpa işlərini davam etdirirlər. Qalanın üstü nəhəng bir tikinti meydançasını xatırladır. Xeyli işçi qüvvəsi cəlb edilməsinə baxmayaraq, sakit və ahəngdar mühitdə davam edən iş göz oxşayır. Az bir müddət keçməsinə baxmayaraq, xeyli bərpa işləri görülmüş, qalanın şərq və qərb darvazaları bərpa edilərək əvvəlki vəziyyətinə qaytarılmışdır. İri qaya parçalarından inşa edilən qala divarlarının bərkidilməsi üçün, əsasən, əhəng məhlulundan istifadə edilmişdir. Təmir və bərpa işlərinə rəhbərlik edənlər nəinki divarların əslinə uyğun şəkildə bərpasına səy göstərmiş, həmçinin bu əvəzedilməz abidənin neçə min il bundan əvvəlki əzəmətli görkəmini də göstərməyə nail olmuşlar. Qalanın üzərində yerləşən binaların təmizlənməsi nəticəsində onların ilkin forması müəyyənləşdirilmişdir. Bərpa və təmizləmə işlərindən sonra məlum olmuşdur ki, qalanın yuxarı səki hissəsindəki binaların bir qismi yaşayış sahəsi kimi, bir qismi isə ictimai bina kimi istifadə olunmuşdur. Burada süvarilərin atlarını saxladığı tövlələr, ərzaq anbarları və çörək bişirmək üçün təndirlər aşkar edilmişdir. Evlərin qızdırılmasında kiçik təndirlərdən və buxarılardan istifadə olunmuşdur. Bir-birinin yaxınlığında yerləşən mənzillər, başlıca olaraq, birotaqlıdır. Bəzi otaqların arxa divarlarında dördkünc formalı taxçalar, evlərin içərisində isə kiçik təndirlər, həvənglər, əl dəyirmanları aşkar olunmuşdur. Bir sözlə, təmir-bərpa işləri zamanı qalada yaşayan insanların həyat tərzini özündə əks etdirən xeyli faktlar üzə çıxarılmışdır.

Bərpa işləri zamanı torpaq altında qalan xeyli bina aşkar olunaraq təmizlənmişdir. Ümumiyyətlə, ilkin işlər qalada yaşayış sahəsinin olduqca böyük olduğunu göstərir. Mənbələrin məlumatına görə, qalada altı yüz döyüşçünün sığınması üçün şərait olmuşdur. Böyük ictimai binalar ərzaq ehtiyatı saxlamağa imkan vermişdir. Suya olan tələbatı ödəmək üçünsə su hovuzlarından və kəhrizlərdən istifadə olunmuşdur. Hovuzlarda suyu toplamaq üçün sərt qayaların üzəri ilə kiçik kanallar açılmışdır. Hovuzlardan bəzisinin uzunluğu 20 metr, eni 5 metrə yaxındır. Bəzi hovuzların dərinliyi 3 metrdir. Yaz aylarında yağış çox yağanda bəzən suyun hamısını hovuzlarda toplamaq olmurdu. Buna görə qala sakinləri yeraltı suları idarə etmək üçün səy göstərmiş, qalanın bəzi hissələrində yeraltı suları üzə çıxarmağa nail olmuşlar. Son illər aparılan araşdırmalar zamanı Əlincəqalanın şərq tərəfində aşkar olunan kəhrizlər də suya olan tələbatın ödənilməsi üçün mühüm rol oynamışdır. Bu kəhriz indi də kənd sakinləri tərəfindən istifadə edilməkdədir. Lakin isti yay günlərində bəzən hovuzların və kəhrizlərin suyu quruyur. Ehtimal ki, Əlincəqalanın sakinləri yeraltı yollar vasitəsilə Xanəgah kəndindəki su mənbələrindən də yararlana bilmişlər.

Bənzərsiz və özünəməxsus müdafiə sistemi olan Əlincəqalanın bərpası tariximizin bərpası deməkdir. Qala divarları və yaşayış binaları birbaşa qayanın üzərində inşa olunduğundan seysmik baxımdan olduqca davamlı və təhlükəsizdir. Divarların inşasında istifadə olunan inşaat materialları onların tarixin müxtəlif mərhələlərində bərpa olunduğunu təsdiq edən maddi sübutdur. Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinin istinadgahı olmuş Əlincəqala monqolların və teymurilərin zamanında xüsusilə dağıntıya uğramış və yenidən bərpa olunmuşdur. Mənbələrin məlumatına görə, Atabəy hökmdarı Özbək Xarəzmşahların yürüşü zamanı qalaya sığınıbmış. Onu Əlincəqalanın yaxınlığında dəfn ediblər. Tədqiqatçılar belə hesab edirlər ki, Əlincəqala yaxınlığında "Özbək yeri" adlanan ərazi Atabəy hökmdarının dəfn olunduğu yerdir. Çox təəssüf ki, vaxtilə Xanəgah kəndi yaxınlığında mövcud olan zəngin kitabəli qəbir abidələrindən əsər-əlamət qalmamışdır. Amma tarixi hadisələrin şahidi olan, neçə cahangirlərə sinə gərən Əlincəqala hələ də öz möhtəşəmliyini qorumaqdadır.

Əlincəqalanın Əmir Teymura qarşı on dörd il müqavimət göstərməsi tariximizin şanlı səhifələrindən biridir. Bəzi mənbələr göstərir ki, Hindistana yürüşdən geri qayıdarkən Əmir Teymur artıq tərk edilmiş qalaya daxil olur və onun möhtəşəmliyinə heyran qalır. Əlincəqala yazılı qaynaqlarda VI əsrdən etibarən xatırlanmışdır. Qalanın xatırlandığı ən qədim mənbə "Kitabi-Dədə Qorqud" dastanıdır. Əlincəqala haqqında tarixçilərdən Nəsəvi (XIII əsr), Şərafəddin Əli Yəzdi (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumat vermişlər. Əlincəqala XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin II yarısında Cəlairilərin hakimiyyəti altında olmuşdur.

Kastiliya kralının Teymurilər dövlətindəki səfiri Rüi Qonsales Klavixo Əlincəqalanı belə təsvir etmişdir: "Əlincəqala yüksək və sıldırım bir dağ üzərində qərar tutaraq divar və bürclərlə əhatə olunmuşdur. Divarların daxilində, dağ yamaclarının aşağı tərəflərində üzümlüklər, bağlar, zəmilər, otlaqlar, bulaqlar və hovuzlar vardır. Qəsr və ya qala dağın zirvəsində yerləşir".



Əlincəqalada bərpa və təmir işləri davam etməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikamızda Əlincəçay xanəgahı, İmamzadə, Qarabağlar memarlıq kompleksləri, Möminə xatın, Yusif Küseyiroğlu kimi türbələr, Əshabi-Kəhf ziyarətgahı, Ordubad buxzanası və onlarla digər abidələr bərpa edilərək tariximizə və mədəni irsimizə qazandırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra muxtar respublika ərazisində 1200-dən artıq abidə qeydə alınmışdır. Hazırda Naxçıvan ərazisində olan onlarla arxeoloji abidədə tədqiqatlar aparılmaqdadır.

*Mədəni irsimizin öyrənilməsindəki bu uğurlar muxtar respublika rəhbərinin uğurlu və məqsədyönlü sosial-iqtisadi siyasətinin nəticəsidir. Əminik ki, yaxın illər ərzində minillik tariximizdən xəbər verən digər abidələrimiz də bərpa edilərək milli-mədəni irsimizə qovuşdurulacaqdır.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

*Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər*

# Tarixi roman janrının banisi

***Naxçıvan elmi-ədəbi, ictimai-siyasi mühitinin Azərbaycan tarixinə, ədəbiyyatına, elminə, mədəniyyətinə bəxş etdiyi ilklərdən bəhs edən budəfəki yazımızda Azərbaycan tarixi roman janrının və tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadi haqqında danışacağıq.***

Azərbaycan ədəbiyyatına tarixi roman janrının gözəl nümunələrini bəxş edən, ədəbiyyatımızda tarixi roman janrının banisi kimi tanınan Məmməd Səid Ordubadi əsərlərində bir çox məsələlərə toxunmuş, tariximizin müxtəlif dövrlərində baş vermiş hadisələri qələminin gücü ilə bədii formada təsvir etmişdir.

M.S.Ordubadi Azərbaycan və həmçinin Şərq tarixini çox gözəl bilirdi. Ərəb və fars dillərini bilməsi onu tarixi mənbələrə çəkib aparırdı. Bundan əlavə, ədib 1905-ci ildən 1920-ci ilədək həm İranda, həm də Azərbaycanda baş verən bir çox tarixi hadisələrin canlı şahidi və iştirakçısı olmuş, bu hadisələri illər sonra bədii əsərlərində əks etdirmişdir. M.S.Ordubadi uzun müddət dövlət vəzifələrində çalışmış və siyasi mühitlə yaxından tanış olmaq imkanı əldə etmişdi.

Ümumiyyətlə, onun tarixə marağı güclü idi və bir sıra dramlarını da tarixi mövzuda qələmə almışdır. Onun tarixə olan marağı tarixi roman janrının əsasının qoyulmasında təməl, bünövrə rolunu oynamışdır.



"Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər" və "Qılınc və qələm" tarixi romanları həmin təməl üzərində ərsəyə gəlmiş bədii əsərlərdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin anadan olmasının 140 illiyi haqqında" 10 aprel 2012-ci il tarixli Sərəncamında deyilir: "Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. Çoxşaxəli ədəbi fəaliyyət göstərən və bir çox məşhur operaların librettosunun müəllifi olan sənətkar həmçinin dövrün mühüm ictimai-siyasi hadisələrini zəngin faktlar, sənədlər əsasında dolğun əks etdirən əsərləri ilə tanınır".

Bildiyimiz kimi, roman ədəbiyyatın elə janrıdır ki, onun güzgüsündə cəmiyyətin psixologiyası, tərəqqiyə səbəb olan və ya onu ləngidən amillər əks olunur. Çünki onun başlıca predmetini cəmiyyət və şəxsiyyət münasibətlərinin dərin və hərtərəfli təhlili təşkil edir. Tarixi roman müəllifi isə bədii əsərdə tarixi faktları əks etdirməyi bacarmalı və oxucunu buna inandırmalıdır. Həmçinin müəllif tarixi faktlara müəyyən mənada sadiq qalmalıdır. Bu, romanı daha da dolğun etməklə birlikdə, tariximizi öyrənmək baxımından da əsərin əhəmiyyətli bir vasitə rolunu oynamasına səbəb olar. Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı dövrün psixologiyasını əks etdirir. Bu baxımdan tarixi roman janrı son dərəcə əhəmiyyətlidir. Dövrün həm zahiri, həm də daxili mənzərəsini yaratmaq baxımından tarixi roman janrı həmin dövrə güzgü tutmağı bacarmalıdır. Tarixi roman cəmiyyətə daha tez nüfuz edir, nəinki tarix kitabları… Tarixi romanı xalq oxuyur, mütaliə edir, bədiiliklə birlikdə tarixi gerçəkləri öyrənir, hadisələri daha tez qavramaqla uzun müddət yaddaşda saxlaya bilir. Belə əsərlər həm də hər bir oxucuda sanki həmin hadisələrin şahidi kimi müqayisə bacarığı formalaşdırır. Bu isə oxucunu keçmişdən dərs almağa sövq edir. Bu baxımdan tarixi roman janrında hadisələrin düzgün və xronoloji təsviri əsasdır. Tarixi romanı mənimsəyən cəmiyyət özü də bilmədən tarixlə, tariximizlə tanış olur. Bu baxımdan roman, xüsusilə tarixi roman müəllifi olmaq heç də asan deyil. "Dumanlı Təbriz" romanında Məmməd Səid Ordubadi tarixi hadisələri bədii təsvir və ifadə vasitələrilə, faktlarla mükəmməl şəkildə əks etdirərək bədii əsərdə tarixi xronologiya yarada bilmişdir.

"Dumanlı Təbriz" tarixi romanı Azərbaycanda milli azadlıq hərəkatının tarixini sistemli şəkildə əks etdirən romanlardandır. Əsərdə Səttar xan, Bağır xan kimi milli qəhrəmanların xalqın azadlığı uğrunda göstərdiyi qəhrəmanlıqlar məharətli yazıçı qələmi ilə öz bədii əksini tapmışdır. "Azərbaycanda bir neçə nəsil Sərdari-milli Səttar xanı qüdrətli bir sərkərdə kimi tarixdən çox "Dumanlı Təbriz"dən tanımışdır". Akademik İsa Həbibbəylinin bu fikri bədii əsərin gücünü və oxucular arasında nüfuzunu göstərməkdədir.

Məmməd Səid Ordubadi, sadəcə, Səttar xan hərəkatına rəğbət bəsləməklə qalmamış, həmin hərəkatın fəal iştirakçısı, bir çox hallarda görkəmli sərkərdənin silahdaşı olmuşdur. XX əsrin ilk inqilablar dövrünün mənzərəsini müəllif məhz bu əsərində canlandırmışdır. Ümumiyyətlə, Şərq həyatı haqqında ilk həqiqi və dolğun təəssürat bu əsərdə yaradılmış, hərtərəfli məlumat bu əsərdə verilmişdir. Əsərin əsas mövzusu Məşrutə hərəkatıdır. Və 1907-1917-ci illərdə baş vermiş hadisələr bədii boyalarla, obrazların dili ilə təsvir və təhlil edilmişdir. Romanda cərəyan edən hadisələr realist tərzdə təsvir olunmaqla oxucuda baş vermiş hadisələrə inam yaradır. Bu, tarixi roman janrının əsas tələblərindəndir. Ümumiyyətlə, M.S.Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının ədəbi meyarlarını müəyyənləşdirməklə məktəb yaratmış dahi sənətkarlarımızdandır. Şərq və Qərb mühitini qarşı-qarşıya qoyan nasir əsərdəki obrazların dili ilə hər iki qütb haqqında fikirlərini ifadə edir, Şərqlə Qərbin müsbət və mənfi cəhətlərini tarixi faktlarla oxucuya çatdırır.

Məmməd Səid Ordubadinin "Döyüşən şəhər" və "Gizli Bakı" əsərləri də Azərbaycan tarixi romanının yaddaqalan nümunələrindəndir. Ədibin "Qılınc və qələm" tarixi romanı Azərbaycan tarixinin Nizami dövrünün ədəbi salnaməsidir. Böyük sənətkarlıqla yazılmış bu möhtəşəm bədii əsər Azərbaycan ədəbiyyatında tarixi roman janrının zirvəsində dayanır.

**Nərgiz İSMAYILOVA**

# E l a n

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən muzeylərdə mövcud olan boş iş yerlərinin tutulması üçün sənəd qəbulu elan edir. İşləmək arzusunda olanlar aşağıdakı sənədləri 21 iyul 2014-cü il tarixdən 21 avqust 2014-cü il tarixədək həftənin iş günləri komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) təqdim edə bilərlər:

1. Şəxsiyyəti təsdiq edən sənədin surəti
2. Kadrlar uçotunun şəxsi vərəqəsi
3. Təhsil haqqında sənədin surəti
4. Sağlamlıq haqqında vahid formalı arayış
5. 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil

**Qeyd:** İşə qəbul zamanı xarici dil biliyi olan şəxslərə üstünlük verilir.

***Əlaqə telefonu:*** 545-65-71

## Muzeylərdə olan boş iş yerləri haqqında MƏLUMAT

| № | Vakant ştat vahidinin adı | Ştat sayı |
|---|---|---|
| | **Heydər Əliyev Muzeyi** | |
| 1. | Bələdçi | 1 |
| | **"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi** | |
| 1. | Direktor | 1 |
| 2. | Baş fond mühafizəçisi | 1 |
| 3. | Kiçik elmi işçi | 1 |
| 4. | Bərpaçı rəssam | 1 |
| | **Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi** | |
| 1. | Böyük elmi işçi | 1 |
| 2. | Bələdçi | 2 |
| | **Açıq Səma Altında Muzey** | |
| 1. | Ekskursiyaçı | 1 |
| 2. | Tərtibatçı rəssam | 1 |
| | **Naxçıvan Dövlət Xalça Muzeyi** | |
| 1. | Baş elmi işçi | 1 |
| 2. | Ekskursiyaçı | 1 |
| 3. | Bələdçi | 1 |
| | **"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi** | |
| 1. | Baş fond mühafizəçisi | 1 |
| 2. | Elmi işçi | 1 |
| 3. | Bələdçi | 1 |
| | **Hüseyn Cavidin ev-muzeyi** | |
| 1. | Bələdçi | 3 |
| | **Cəmşid Naxçıvanskinin ev-muzeyi** | |
| 1. | Tərtibatçı rəssam | 1 |
| | **Bəhruz Kəngərli Muzeyi** | |
| 1. | Direktor | 1 |
| 2. | Fond mühafizəçisi | 1 |
| 3. | Bələdçi | 1 |
| | **Xatirə Muzeyi** | |
| 1. | Direktor | 1 |
| 2. | Bələdçi | 1 |
| 3. | Zal nəzarətçisi | 1 |
| | **Cəlil Məmmədquluzadənin ev-muzeyi** | |
| 1. | Ekskursiyaçı | 1 |
| 2. | Bərpaçı rəssam | 1 |
| | **Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi** | |
| 1. | Kiçik elmi işçi | 1 |
| | **Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi** | |
| 1. | Direktor | 1 |
| | **Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi** | |
| 1. | Direktor | 1 |
| 2. | Zal nəzarətçisi | 1 |
| | **Akademik Yusif Məmmədəliyevin ev-muzeyi (Ordubad rayonu)** | |
| 1. | Direktor | 1 |
| | **M.S.Ordubadinin ev-muzeyi (Ordubad rayonu)** | |
| 1. | Bərpaçı rəssam | 1 |
| | **Xalq şairi Məmməd Arazın ev-muzeyi (Şahbuz rayonu)** | |
| 1. | Direktor | 1 |
| 2. | Fond mühafizəçisi | 1 |
| 3. | Ekskursiyaçı | 1 |
| | **Cəlil Məmmədquluzadənin xatirə muzeyi (Nehrəm kəndi)** | |
| 1. | Kiçik elmi işçi | 1 |
| 2. | Zal nəzarətçisi | 2 |
| | **"Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi** | |
| 1. | Mühasib | 1 |
| 2. | Dini işlər üzrə mütəxəssis | 1 |
| | **Cəmi:** | 42 |

## İstirahətimizi xoş ovqatla və təhlükəsiz keçirək

***İsti yay günlərində insanlar sərinləmək üçün çimərliklərə, su hövzələrinə üz tuturlar. Belə məkanlardan biri də Uzunoba Su Anbarında yaradılmış yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyidir. İnsanların asudə vaxtlarını səmərəli keçirmələri, onların sağlamlıqlarının qorunması üçün burada hərtərəfli şərait yaradılmış, təhlükəsizlik tədbirləri diqqət mərkəzində saxlanılaraq müşahidə qülləsi qurulmuş, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedici qrupunun fəaliyyəti təşkil olunmuşdur. Bundan əlavə, çimərlik ərazisində xəbərdaredici və məlumatlandırıcı lövhələr də yerləşdirilmişdir.***



Vətəndaşlarımız tərəfindən müəyyən olunmuş təhlükəsizlik tədbirlərinə əməl olunmaması bədbəxt hadisələrin baş verməsi ilə nəticələnə bilər.

Buna görə də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi çimərlikdə istirahət edən vətəndaşlarımıza aşağıdakı təhlükəsizlik qaydalarına əməl etmələrini tövsiyə edir:

- çimərlik üçün ayrılmış və xüsusi avadanlıqlarla təchiz edilmiş yerlərdən başqa, tanımadığınız və qadağan edilmiş yerlərdə suya girməyin;
- hava ilə doldurulmuş üzmə vasitələri ilə işarələnmiş sahədən kənara çıxmaq, suda ikən taxta parçalarından və əldə düzəldilmiş üzmə vasitələrdən istifadə etmək olmaz;
- küləkli havada suya girməyin;
- çimərlik ərazisində uşaqları nəzarətsiz qoymayın; 13 yaşına çatmamış uşaqların nəzarətsiz suya girməsi qadağandır;
- sahil sahəsini və suyun dibini müxtəlif cismlərlə (şüşə və konserv bankaları, plastik kütlə və ərzaq tullantıları və sair) zibilləməyin;
- xilasedicilərin çağırış və tələblərinə riayət edin, suda kobud hərəkətlərə, yersiz zarafatlara yol verməyin;
- xəbərdaredici nişanların və lövhələrin tələblərinə riayət edin;
- sərxoş halda suya girmək həyatınız üçün təhlükəlidir;
- skuterlərin sərxoş şəxslərə verilməsi qadağandır;
- dumanlı və yağışlı havalarda suya girmək olmaz;
- yemək yedikdən dərhal sonra suya girmək sizin sağlamlığınız üçün təhlükəlidir. Yalnız yeməkdən 1,5-2 saat sonra suya girmək məqsədəuyğundur;
- insanların suda olduğu sahədə balıq ovlamaq olmaz;
- əgər suda olarkən hər hansı bir xoşagəlməz hadisə baş verərsə, özünüzü itirməyin və çığırmayın, çünki çığıran zaman ağciyərlərin su ilə dolması qaçılmazdır və bu, boğulmaya səbəb ola bilər.

### *Suda batan insanı necə xilas etməli?*

- Suda batan insanın xilas edilməsi üçün ilkin olaraq ətrafdakıların diqqətini cəlb etmək üçün yüksək səslə "İnsan batır!" deyə, çığırmaq lazımdır. Sonra isə hava ilə doldurulmuş oyuncaq, boş plastik butulka, rezin uzunboğaz çəkmə və yaxud iç-içə geyilmiş hava ilə doldurulmuş ağzı bağlı torba götürərək köməyə tələsin. Lazımi əşyalar olmadıqda, batan insanın köməyinə iki-üç nəfərlə çatmaq lazımdır. Bunun üçün suya girməzdən əvvəl islanaraq ağırlaşa bilən ayaqqabı və paltarları soyunmaq, batan insana bacardıqca tez bir zamanda çatmaq vacibdir;
- əgər üzməyi bacarırsınızsa, batan şəxsə tərəf yaxınlaşıb arxadan onun saçından tutub sahilə tərəf çəkmək lazımdır və ya yaxında ip, taxta, hava balonu və sair bu kimi əlaltı vasitələr varsa, onlardan istifadə edərək onu xilas etməyə çalışın;
- batan şəxs sizə yaxındırsa, onun sizdən yapışmasına imkan verməyin, onun başını suyun üzünə qaldıraraq sahilə doğru çəkin. Çünki o, özünü xilas etmək məqsədilə sizi də batıra bilər. Buna görə də batan şəxsə tərəf əşya, ip, ağac və sair uzadaraq onu xilas etmək daha məqsədəuyğundur;
- bütün bu tədbirləri görən zaman Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinə hadisənin baş verdiyi yeri dəqiq göstərməklə məlumat verin.

### *Sudaboğulma və qıcolmalar zamanı ilk tibbi yardım necə göstərilir?*

Unutmayın, əgər suda batan insan suda 6 dəqiqədən az qalıbsa, onu xilas etmək olar. Belə ki, həmin şəxsi sudan çıxardıqdan sonra arxası üstə uzadaraq başını yana çevirib barmağınızla ağzına və ya burnuna dolmuş palçığı, qumu təmizləyin. Sonra zərərçəkmişi qarnı üstə dizinizin üstünə qoyub, bərk sıxmaqla mədəsinə və ağciyərinə dolmuş suyu çıxartmağa çalışın;

- zərərçəkənin tənəffüsü və ürək fəaliyyəti dayanıbsa, ona süni tənəffüs verilməli və ürək masaj olunmalıdır. Hətta görsəniz ki, köməyiniz heç bir nəticə vermir, "təcili yardım" gələnə qədər zərərçəkənə tibbi yardım göstərməyə davam edin;
- uzun müddət soyuq suda qaldıqda və ya suda çoxlu hərəkət etdikdə əzələlərin yorulması nəticəsində qıcolma halları baş verə bilər. Əllər qıc olduqda barmaqları yumruq kimi tez-tez yumub açmaq lazımdır. Əgər tək bir əl qıc olubsa, yan üstdə o biri əl ilə sahilə tərəf üzün. Qarın əzələləri qıc olduqda arxası üstdə dizləri tez-tez qarın tərəfə çəkmək lazımdır. Ayaqarası əzələlər qıc olubsa, ayağı suyun üzərinə çıxararaq əl ilə pəncəni dartmaq lazımdır. Bud nahiyəsinin əzələləri qıc olduqda ayağı tez dizdən bükərək dabanı var qüvvə ilə sıxmaq lazımdır. Qıcolmanı aradan qaldırmaq üçün iynədən, sancaqdan da istifadə etmək olar.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *Allah rəhmət eləsin*

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi iş yoldaşları **ABBAS MEHDİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Malikəjdər İbrahimov yaxın dostu **ABBAS MEHDİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 614